

# Zaqatala: Pandemiya aqrar sektorun inkişafına mane ola bilməyib

***Bu rayonun 2020-ci ilin əvvəlindən – yəni koronavirus pandemiyasının tüğyan etdiyi aylarda aqrar sektorda əldə etdiyi nəticələrin, demək olar ki, hamısı uğurludur. Kənd təsərrüfatının bütün sahələrində artım, inkişaf görünür. Rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə ilə söhbətimizdə də bu məsələ xüsusilə qabardıldı.***

Həmsöhbətim qeyd etdi ki, bu gün əsas məsələlərdən biri də payızlıq dənli bitkilərin səpininə hazırlaşmaqdır: Bu il rayonda 11 min hektar sahədə payızlıq dənlilərin səpini proqnozlaşdırılır. Bu məqsədlə təsərrüfatlarda yay şumunun çıxarılmasına başlanılıb. İndiyədək 3500 hektardan çox sahədə yay şumu qaldırılıb. Səpin aparılacaq sahələrin şumlanmasına 70-dək şum traktoru cəlb olunub.

Zaqatala Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Vaqif Şabanov isə bildirdi ki, payızlıq bitkilərin səpininə sentyabrın üçüncü ongünlüyündə başlamaq nəzərdə tutulur. Xatırladaq ki, builki mövsümdə zaqatalalı fermerlər 11 min 320 hektar taxıl sahəsindən 35 min 50 ton məhsul götürüblər. Hər hektara görə orta məhsuldarlıq 31 sentner təşkil edib. Taxıl istehsalı əvvəlki illə müqayisədə 1881 ton artıb.

Gündəlikdə olan məsələlərdən biri də kartofçuluğun unkişaf etdirilməsidir. Artıq rayonun təsərrüfatlarında kartof yığımı başa çatıb. Məhsul istehsalçıları builki mövsümdə 1584 hektar sahədən 19 min 87 ton məhsul götürüblər. Hər hektardan orta məhsuldarlıq 120,5 sentner təşkil edib. Kartof istehsalı əvvəlki illə müqayisədə 220,5 ton artıb.

Təsərrüfatlarda tərəvəz, lobya, meyvə və bostan məhsullarının yığımı isə hələlik davam edir. İndiyədək tərəvəz əkilmiş 2155 hektar sahənin 1489 hektarının məhsulu yığılıb, 9 min 667 ton tərəvəz istehsal edilib. Məhsul istehsalı keçən ilin müvafiq dövrü ilə müqayisədə 146 ton artıb. Eyni zamanda, rayonda indiyədək 377 ton lobya, 2601 ton meyvə, 23,5 ton yaşıl çay yarpağı, 4700 ton bostan məhsulları istehsal olunub.

Mən bu faktları eşidəndə ilin birinci yarısının yekunlarına həsr olunmuş ümumrayon toplantısında səsləndirilən rəqəmləri xatırladım. O zaman qeyd edilmişdi ki, ilin birinci yarısında Zaqatalada aqrar sahədə məhsul istehsalı 18,8 faiz artıb.

Təbii ki, Zaqatalanın əsas kənd təsərrüfatı sahələrindən biri də tütünçülükdür. Bu sahəni inkişaf etdirmək məqsədi ilə dünya bazarının təklifinə uyğun olaraq, rayonda əsasən ətirli və qiymətli tütün sortları olan “Berley” və “Virciniya”nın yetişdirilməsinə üstünlük verilir. Bu məqsədlə “İntertobacco” şirkətində əvvəlki illərdə istifadəyə verilmiş 56 ədəd odla tütün qurutmaxanası, 5000 kvadratmetr sahəsi olan anbar binası, 7320 kvadratmetr sahəsi olan müasir texnologiyaya əsaslanan tütün şitillik təsərrüfatları bu məhsulun istehsalını artırmağa imkan verir.

Fermerlər arasında tütünçülüyün ixrac potensiallı olması barədə geniş maarifləndirmə tədbirlərinin aparılmasının nəticəsidir ki, cari ildə 574 hektar sahədə tütün əkininə 1720 nəfər mövsümi işə cəlb edilib. Xeyli müddətdir ki, məhsul yığımı davam edir. İndiyədək sahələrdən nəzərdə tutulduğundan da çox yaşıl tütün tədarük edilərək qurudulmaq məqsədi ilə kameralara göndərilib.

Hamının bildiyi faktdır ki, Zaqatala deyəndə yada düşən ilk məqamlardan biri də gülçülükdür. Rayon üçün ənənəvi və ixrac potensialı yüksək olan gülçülüyün inkişaf etdirilməsi üçün 2016-cı ildən gül plantasiyasının salınmasına başlanılıb. Yeni gül emalı zavodunun tikintisinə 100 hektar torpaq sahəsi ayrılıb “AZ ROSE” MMC-nin sifarişi əsasında Aşağı Tala kəndi ərazisində ümumi sahəsi 1008 kvadratmetr olan istehsalat binası, ümumi sahəsi 1256 kvadratmetr olan 3 mərtəbəli inzibati bina, ümumi sahəsi 150 kvadratmetr olan qazanxana binası və digər tikililər inşa edilib. Eləcə də, bu müəssisə üçün 5000 ton tutumu olan su anbarı quraşdırılıb.

Bundan başqa, 2018-ci ildə “AZ ROSE” MMC ərazisində 3000 ton tutumu olan su anbarı, nasosxana tikilib, yeni salınan gül plantasiyalarında damcılama üsulu ilə suvarma sistemi şəbəkəsi quraşdırılıb. Xatırladaq ki, 2016-cı ilin payızında 64 hektarda Bolqarıstandan gətirilmiş 250 min ədəd qızılgül tingi, 2017-ci ilin birinci rübündə 25 hektar sahədə 500 min ədəd lavanda tingləri, 2017-ci ilin payızında isə gül plantasiyası üçün ayrılmış əlavə torpaq sahəsinin 61 hektarında qızılgül və 11 hektarında lavanda tingləri əkilib. 2019-cu ilin birinci rübündə əlavə olaraq 20 hektar sahədə qızılgül tingləri əkilmişdir. Beləliklə, qızılgül sahəsi 145 hektara, lavanda sahəsi isə 36 hektara çatdırılıb. Təcrübə məqsədilə 0,20 hektar sahədə nanə əkilib.



Ötən il “AZ ROSE” MMC-də abadlıq-quruculuq işləri davam etdirilməklə, qaraj-anbar binasının tikintisi başa çatdırılıb, il ərzində gül plantasiyasında 40 nəfər daimi və 150-200 nəfər mövsümi işlə təmin edilib. Eləcə də müəssisənin 125 hektar qızılgül plantasiyasından 280 ton 71 kiloqram qızılgül, 36 hektar lavanda plantasiyasından 64 ton 800 kiloqram lavanda ləçəyi tədarük edilib, 71,5 kiloqram qızılgül yağı və 1 ton 46 kiloqram lavanda yağı istehsal edilib. İstehsal olunmuş qızılgül yağının bir hissəsi ABŞ, Bolqarıstan və Litvaya göndərilib.

Bu il “AZ ROSE” MMC-nin plantasiyalarından 438 ton 290 kiloqram qızılgül, 66 ton 955 kiloqram lavanda və 5 ton 900 kiloqram nanə ləçəyi tədarük və emal olunub, 121 kiloqram qızılgül yağı, 1 ton lavanda yağı və 31 kiloqram nanə yağı istehsal edilib. Öyrəndik ki, 212 hektar sahədə gül plantasiyalarına aqrotexniki qulluq tədbirləri davam etdirilir.

Daha bir maraqlı məqamı da yada salmaq istəyirəm. Belə ki, 2020-ci ilin birinci yarısı ərzində rayonda görülmüş tikinti, abadlıq və quruculuq işləri haqqında verilən arayışda da ilk olaraq aqrar sektorla bağlı olan obyektlərin adı çəkilirdi. Məsələn, bildirilir ki, yarım il ərzində rayonda “Aqrarco” MMC tərəfindən Aşağı Tala kəndi ərazisində yeni fındıq emalı zavodunun, Zaqatala bələdiyyəsinin mülkiyyətindən ayrılmış 1,38 hektar torpaq sahəsində yaş baramanın qurudulması üçün yığım məntəqəsinin, anbar binalarının tikintisi davam etdirilib. Bundan başqa, “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası məqsədilə Zaqatala şəhərinin şimal-qərb yaşayış massivində Xalça evinin tikintisi ilə əlaqədar müvafiq torpaq sahəsi seçilərək, yer quruluşu kadastr planı hazırlanıb. Hazırda torpaqayırma və layihələndirmə işləri davam etdirilir.

Rayonda aqrar sektorun inkişafı ilə yanaşı, əhaliyə göstərilən xidmətlər, sahibkarlığın dəstəklənməsi, yeni iş yerlərinin yaradılması, ümumiyyətlə, sosial həyatın bütün sahələri ilə bağlı da çoxsaylı tədbirlər həyata keçirilir.




***İlqar HƏSƏNOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***